# "Müasir kitabxana-informasiya terminləri: qısa izahlı lüğəti"

Bu yaxınlarda "Mütərcim" Nəşriyyat-Poliqrafiya Mərkəzində Azərbaycan Milli Kitabxanasının " Kitabxanaşünaslıq elmi-tədqiqat" şöbəsinin baş kitabxanaçısı Yeganə Məmmədovanın müəllifi olduğu "Müasir kitabxana-informasiya terminləri: qısa izahlı lüğəti" məlumat kitabı çapdan çıxmışdır. Kitabın İxtisas redaktoru və elmi məsləhətçisi "Biblioqrafiyaşünaslıq" kafedrasının müdiri, dosent, pedaqogika üzrə fəlsəfə doktoru Nadir İsmayılov, rəyçisi isə "Biblioqrafiyaşünaslıq" kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Solmaz Sadıqovadır.

Lüğətdə kitab çapına, kitabxana işinin bütün aspektlərinə və kitabxana-informasiya texnologiyalarına dair daha müasir terminlərin qısa izahı toplanmışdır. Lüğət girişdən, əlifba sırası ilə verilmiş terminlər və ədəbiyyat siyahısından ibarətdir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda kitabxanaçılıq sahəsində ilk məlumat kitabı 1986-cı ildə A.Xələfov, R.Kazımov, E.Bədəlov tərəfindən hazırlanmış "Kitabxana işçisinin məlumat kitabı"olmuşdur. Kitab əsasən kitabxana işçiləri, ali və orta ixtisas müəssisələrində kitabxanaçı kadrların hazırlanması üçün nəzərdə tutulan ümumi kitabxanaçılıq terminlərini əhatə etmişdir.

İnformasiya texnologiyalarının dinamik inkişaf etdiyi müasir dövrümüzdə yeni sözlər və terminlər meydana gəlməkdədir. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə tədbirlər зlanının 2.6.15 bəndinin icrası ilə əlaqədar olaraq Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 2010-cu ildə "Kitabxana-informasiya terminlərinin qısa lüğəti" çap olunmuşdur. Lüğətdə kitabxana-informasiya sahəsində ənənnəvi və yeni terminlər (392 söz) Azərbaycan və rus dillərində toplanmışdır.




2015-ci ildə Azərbaycan Milli Kitabxanası tərəfindən ilk fundamental məlumat kitabı olan "Azərbaycan kitabxana ensiklopediyası" çap olunmuşdur ki, burada da kitabxana-informasiya sahəsinə aid çoxsaylı terminlərin izahı və s. materiallar toplanmışdır. 2016-cı ildə isə Milli Kitabxana "İnnovativ kitabxana-informasiya xidməti" sorğu kitabçası nəşr etmişdir. Sorğu kitabında kitabxanalarda həyata keçirilən innovativ fəaliyyət metodları, yeni xidmət növləri, elektron resurslar və proseslər haqqında qısa məlumat (60 söz) verilmişdir. Kitabçada göstərilən bəzi sözlər (20 söz) "Kitabxana-informasiya terminlərinin qısa lüğəti"ində də öz əksini tapmışdır (məsələn, biblioqrafik xidmət, elektron əlfəcin, elekton poçt, elektron sənəd və s.).

İstifadəçilərə təqdim edilən "Müasir kitabxana-informasiya terminləri: qısa izahlı lüğəti"-nin sadalanan digər tərtib işlərindən fərqi ondan ibarətdir ki, bu, sorğu kitabçası deyildir. Lüğətin əsas özəlliyi ondadır ki, burada kitab çapına, kitabxana işinin bütün aspektlərinə və kitabxana-informasiya texnologiyalarına dair elmə təqdim edilmiş yeni terminlərin (183 söz) qısa izahı öz əksini tapmışdır. Bunlardan yalnız bəziləri (5 söz) "İnnovativ kitabxana-informasiya xidməti" sorğu kitabçasında da göstərilmişdir.

"İnnovativ kitabxana-informasiya xidməti" sorğu kitabçasında bunlardan yalnız bir neçəsinə (5 söz) "Kitabxana-informasiya terminlərinin qısa lüğəti"ində rast gəlmək mümkündür. Kitabda terminlər lüğətlərin tərtibi metodikasına əsasən əlifba sırası ilə düzülmüş və izahı verilmişdir. Lüğət kitabxana sahəsində fəaliyyət göstərən bütün mütəxəssislər üçün nəzərdə tutulmuşdur.

Ümumiyyətlə, bu lüğət Azərbaycan kitanxanaşünaslıq elminə yeni bir töhfədir.

**B.A.Ələsgərov,**
**Beynəlxalq Nobel İnformasiya Mərkəzinin vitse prezidenti, tarix elmləri doktoru**

İqtisadiyyat.- 2018.- 8-14 fevral.- S.8.